**"BQ" Açıq Səhmdar Cəmiyyəti**

*Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan*

*20 000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

# EMİSSİYA PROSPEKTİ

**Bakı - 2026**

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "BQ" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"BQ" ASC-nin Direktoru:**

**Rufat Manafov Sabiroviç** ____________

**Tarix: 15.01.2026**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti "BQ" Opened Joint Stock Company Azerbaijan Republic

**"BQ" ASC-nin Baş Mühasibi:**

**Mehdiyeva Nigar Allahverdi qızı** ____________

**Tarix: 15.01.2026**

# MÜNDƏRİCAT


XÜLASƏ....4

1. Xəbərdarlıq....4
2. Emitent barədə məlumat....4
3. Qiymətli kağızlar haqqında məlumat....6
4. Risk faktorları....8
5. Təklif....8

I. İstiqrazlar barədə tələb olunan məlumat....10

6. Əsas məlumat....10
7. İstiqrazlar barədə məlumat....12
8. Təklifin şərtləri....13
9. Ticarətə buraxılma və onun tənzimlənməsi....15
10. Kredit reytinqləri....16
11. Emitentin auditorları barədə məlumat....16
12. Seçilmiş maliyyə məlumatı....17
13. Emitent barədə məlumat....17
14. Emitentin biznesinin icmalı....18
15. Digər təşkilatlarda iştirak....19
16. Tendensiyalar barədə məlumat....20
17. Gəlir proqnozu....20
18. Emitentin idarəetmə və nəzarət orqanları....20
19. İdarə heyətinin işgüzar praktikası....20
20. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər....21
21. Emitentin maliyyə məlumatları....22
22. Emitent haqqında əlavə məlumatlar....29

## XÜLASƏ

### 1. Xəbərdarlıq.

1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

### 2. Emitent barədə məlumat

2.1. **Emitentin tam adı:** "BQ" Açıq Səhmdar Cəmiyyəti;

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Açıq Səhmdar Cəmiyyəti, AZ1106, Bakı şəh., Nərimanov ray., Azadlıq pr.,ev.Giriş 211E;

2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsvir:** "BQ" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir. Təşkilat təminatlı kredit bazarında rəqabət aparır. Hazırki dövrdə təşkilatın fəaliyyətinə əsas təsir edən valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar "BQ" ASC tərəfindən qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində Emissiya prospekti hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlərin həcmi azdır və kredit portfelinin böyük həcmi milli valyutadan ibarətdir.

***İnflyasiya və alıcılıq qabiliyyəti:*** Əhalinin gəlirlərində sabitlik çatışmazlığı lombard xidmətlərinə tələbi artırır, çünki insanlar qısa müddətli nağd vəsait əldə etmək üçün tez-tez lombardlara müraciət edir.

***İstehlak kreditlərinə çıxış məhdudiyyətləri:*** Bankların kredit şərtlərinin sərtləşməsi lombardların alternativ maliyyələşmə mənbəyi kimi rolunu gücləndirir.

***Qızıl və digər qiymətli metallar üzrə girovların üstünlüyü:*** Ənənəvi olaraq əsas aktiv növü olaraq qızıl lombard əməliyyatlarında liderdir.

***Məişət texnikası və elektronika:*** Alternativ girov predmetləri (telefon, kompüter, məişət texnikası) üzrə əməliyyatların artımı müşahidə olunur.

2.4. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** "Mövcud deyil".

2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** "Mövcud deyil".

2.6. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsvir:** Hazırkı maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə "BQ" Açıq Səhmdar Cəmiyyətinin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər cəmiyyətin il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir. Şirkət AR Auditorlar Palatasına üzv olan (icazə № AT/121 "Prime Audit and Consulting" MMC tərəfindən audit olunmuşdur. Hazırkı maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə bitən il üzrə "BQ" ASC üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır. Hesabata müsbət rəy verilmişdir və hər hansı vurğulanan məsələ bildirilməmişdir.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

**(Azərbaycan manatı ilə)**

| Göstəricilər | 2025 (audit edilməmiş) | 2024 (audit edilmiş) | 2023 (audit edilmiş) |
|---|---|---|---|
| Mənfəət/Zərər (vergidən əvvəl) | 1,082,741 | 452,594 | 83,715 |
| Mənfəət/Zərər ( xalis) | 917,859 | 343,327 | 63,598 |
| Cəmi öhdəliklər | 5,724,440 | 4,863,894 | 4,635,643 |
| Cəmi kapital | 1,079,983 | 162,124 | (118,203) |
| Cəmi aktivlər | 6,804,422 | 5,026,018 | 4,517,440 |
| Kredit portfeli | 6,223,329 | 4,506,294 | 4,105,330 |
| Pul vəsaitləri | 325,986 | 267,331 | 117,585 |

**2.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** Hazırki dövrdə təşkilatın fəaliyyətinə əsas təsir edən valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar "BQ" ASC tərəfindən qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində emissiya prospekti hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlərin həcmi azdır və kredit portfelinin böyük həcmi milli valyutadan ibarətdir. Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas faktor - kredit portfelinin keyfiyyətinin qənaətbəxş olmasıdır. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 31 dekabr 2025-ci il tarixində bitən il | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-cü il tarixində bitən il |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 304,047 | 390,289 | 323,173 |
| PAR>30/Portfel (%) | 5,0 | 8,5 | 7,8 |

Onuda qeyd etmək lazımdır ki, Cəmiyyətin illər üzrə stabil fəaliyyəti aşağıda göstərilən maliyyələşmə mənbələri hesabına mümkün olmuşdur :

1) əhaliyə verilmiş kreditlərdən əldə edilmiş faiz gəlirləri ;

2) verilən kreditlər üzrə komissiya gəlirləri ;

3) ölkədə fəaliyyət göstərən müxtəlif kredit təşkilatlarından manat ilə cəlb edilmiş borc öhdəlikləri ;

4) Uzunmüddətli, müxtəlif faiz dərəcələri ilə Emissiya edilmiş və yerləşdirilmiş qiymətli kağızlar üzrə daxil olan pul vəsaitləri ;

Qiymətli kağızlar üzrə emissiyaların həyata kecirilməsi ilə daha sərfəli şərtlərlə vəsait cəlb edib əhalının kredit tələbatını təmin etməklə bazarda öz mövqeyini qoruyub saxlamaq və artırmaq nəzərdə tutub.

| Göstəricilər | 31 dekabr 2025-ci il tarixinə bitən il (audit edilməmiş) | 31 dekabr 2024-cü il tarixinə bitən il(audit edilmiş) | 31 dekabr 2023-cü il tarixində bitən il(audit edilmiş) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul:** | | | |
| Əldə edilmiş faizlər | 2,256,584 | 2,044,120 | 1,900,059 |
| Əldə edilmiş haqq və komissiyalar | 500,147 | 107,206 | 96,460 |
| **Maliyyə fəaliyyətindən daxil olan pul:** | | | |
| Müddətli borc öhdəliklərindən daxilolmalar | 1,600,000 | 750,000 | 1,100,000 |
| Müddətli borc öhdəliklərinin qaytarılması | (680,214) | 58,000 | 1,271,864 |
| Buraxılmış qiymətli kağızlarda xalis artım/(azalma) | 14,000 | 168,000 | 650,000 |

**2.9. Emitentin əsas fəaliyyətlərinin təsvir:** "BQ" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli lombard kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir. Emitent təminatlı kredit bazarında fəaliyyət göstərir.

**2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** "BQ" ASC-nin Nizamnamə kapitalının 100 % 1 (bir) fiziki şəxsə Quliyev Fərman Eldar oğluna məxsusdur. Cəmiyyətin Ali İdarəetmə orqanı onun Səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**3.2. İstiqrazların valyutası:** Azərbaycan manatı;

**3.3. İstiqrazların təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**3.4. İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən istiqrazın illik faizi həcmində istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar

**3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 15 (on beş) faiz təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər ayda bir dəfə (hər bir ayın 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

**3.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtlər:** İstiqrazlar təmin edilməmişdir.

**3.7. İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əsasında geri satın alına bilər.

**3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**
İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 (otuz) gün.

Hər bir istiqraz üzrə, hər kupon ödənişində faiz məbləği: 1,25 (bir manat iyirmi beş qəpik) manat təşkil edəcəkdir.

**3.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların mülkiyyətçisinin təmsilçisi mövcud deyil.

**3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmişdir.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtlər:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alınmasından sonra “Bakı Fond Birjası” QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların “Bakı Fond Birjası” QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası” QSC-də “Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi” qaydalarına na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1078, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: +99412 498 98 20
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Buraxılış zamanı əldə ediləcək vəsait aşağıdakı məqsədlər üzrə istifadə olunacaq:

- Dövriyyə vəsaitlərinin artırılması və maliyyə dayanıqlığının gücləndirilməsi;
- Cəlb edilmiş vəsaitin müştərilərə kredit vermək məqsədilə istifadəsi, kredit cəmiyyətin portfelinin genişləndirilməsi;

Bu, cəmiyyətin maliyyə dayanıqlılığını artırmaqla yanaşı, onun fəaliyyətinin səmərəli və davamlı şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. İnvestorlar hərrac

günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən klirinq təşkilatının üzvü olan bankda ("Azər Türk Bank" ASC) emitentin açdığı müvəqqəti cari hesaba köçürməlidirlər. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (https://sizinlombard.az/) açıqlanır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti***

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında birqiymətli hərrac vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti təsdiq edilib, istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına əsasən həyata keçirilir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

***Anderrayter***

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-38/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

5.4.1. **Vergilər.** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlbolunacaqdır.

5.4.2. **Xərclər:** Əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;

investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

- istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 20 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 15 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**İstiqrazlar barədə tələb olunan məlumat.**

**6. Əsas məlumat**

**6.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti***

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında birqiymətli hərrac vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti təsdiq edilib, istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına əsasən həyata keçirilir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;

- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

***Anderrayter***

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-38/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**6.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Buraxılışdan əldə ediləcək vəsait aşağıdakı istiqamətlər üzrə istifadə olunacaq:

- Dövriyyə vəsaitlərinin genişləndirilməsi.
- Cəlb ediləcək vəsait müştərilərə kredit verilməsi üçün istifadə ediləcəkdir.

**6.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Əldə olunan vəsaitlər kifayət etmədiyi təqdirdə, cəmiyyətin təsisçisi tərəfindən əlavə vəsait qoyuluşu və banklar tərəfindən alınacaq kredit vəsaiti ilə əlavə vəsaitlarin cəlb edilməsi imkanına malikdir.

**6.4. Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulmur.

## 7. İstiqrazlar barədə məlumat

**7.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv

olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**7.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**7.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

**Yeni buraxılan**

Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**Tədavüldə olan İstiqrazlar**

AZ2006020930- 1,050,000.00 AZN
AZ2005020931 - 939,000.00 AZN

**7.4. İstiqrazların valyutası:** Azərbaycan manatı;

**7.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tawer.

**7.6. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

**7.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:
- İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən istiqrazın illik faizi həcmində istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar. Məhdudiyyətlər nəzərdə tutulmayıb.

**7.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** illik 15 (on beş) faiz;

**7.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 7 (yeddi) il müddətinə (bir il 360 gün olduğunu qəbul etmək şərtilə).İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən dövri olaraq ayda bir dəfə (bir ay 30 gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir.

**7.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**7.11. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**7.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**7.13. Ödənişlər üzrə hesablaşma agentinin adı:** "BQ" Açıq Səhmdar Cəmiyyəti

**7.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmişdir.

**7.15. İstiqrazların geri satın alınmasının şərtlər:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əsasında geri satın alına bilər.

**7.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 (otuz) gün.

**7.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** : İnvestorları təmsil edən təşkilat mövcud deyil.

**7.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** 14.01.2026-cı il tarixli 01 saylı Qərar, Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı.

**7.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmamışdır.

**7.20. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**

İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

## 8. Təklifin şərtləri

**8.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

**Yerləşdirmənin başlanma tarixi:** Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.

**Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**8.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət

qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

8.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

8.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

8.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar Bakı Fond Birjası QSC-nin ticarət platformasında birqiymətli hərrac üsulu üsulu ilə yerləşdiriləcəkdir. Hərrac zamanı istiqrazların nominal dəyərindən 100 (bir yüz) AZN aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir. İnvestorlar hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən klirinq təşkilatının üzvü olan bankda ("Azər Türk Bank" ASC) emitentin açdığı müvəqqəti cari hesaba köçürməlidirlər. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) ictimayətə açıqlanır.

8.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyəri yalnız pulla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan banklarda (Azər Türk Bank ASC) emitentin açdığı müvəqqəti cari hesabda saxlanılır. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesabına köçürüldüyü andan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

8.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

8.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

8.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazların təklif qiyməti 100 (bir yüz) manat təşkil edir.

8.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği: Vergilər.** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlbolunacaqdır.

**Xərclər:** Əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;

investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

- istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 20 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 15 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**8.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:** İstiqrazların öhdəlik götürmədən yerləşdirilməsi üzrə "İNVEST-AZ İnvestisiya Şirkəti" QSC anderrayter təyin edilmişdir.

**Lisenziyası:**"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC 09.01.2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-38/2016 nömrəli lisenziya;

**Hüquqi ünvanı:** Bakı şəh., Sabunçu ray., Sabunçu ŞTQ, Komsomol, Ev 1;

**Faktiki ünvanı:** Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov küçəsi 28F ;

**Xidmət haqqı:** Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**8.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** Emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra bağlanılacaq.

## 9. Ticarətə buraxılma və onun tənzimlənməsi

**9.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1078, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: +99412 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan

Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**9.2. Market meyker(lər) barədə məlumat:** Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(ləri) cəlb edə bilər.

## 10. Kredit reytinqləri

**10.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Emitent üçün hər hansı kredit reytinqi təyin edilməmişdir.

## İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat

## 11. Emitentin auditorları barədə məlumat

**11.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2025 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |
| 2024 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |
| 2023 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |

**11.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində emitentin auditorlarının dəyişdirilməsi olmamışdır.

## 12. Seçilmiş maliyyə məlumatı

**12.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

**(Azərbaycan manatı)**

| Göstəricilər | 2025 (audit edilməmiş) | 2024 (audit edilmiş) | 2023 (audit edilmiş) |
|---|---|---|---|
| Mənfəət/Zərər (vergidən əvvəl) | 1,082,741 | 452,594 | 83,715 |
| Mənfəət/Zərər (xalis) | 917,859 | 343,327 | 63,598 |
| Cəmi öhdəliklər | 5,724,440 | 4,863,894 | 4,635,643 |

| | | | |
|---|---|---|---|
| | | | |
| **Cəmi kapital** | **1,079,983** | **162,124** | **(118,203)** |
| **Cəmi aktivlər** | **6,804,422** | **5,026,018** | **4,517,440** |
| **Kredit portfeli** | **6,223,329** | **4,506,294** | **4,105,330** |
| **Pul vəsaitləri** | **325,986** | **267,331** | **117,585** |

## 13. Emitent barədə məlumat

**13.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "BQ" Açıq Səhmdar Cəmiyyəti

**13.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri**: "BQ" Açıq Səhmdar Cəmiyyəti 25.05.2016-ci il tarixində təsis edilmişdir. (VÖEN: 1304517621)

**13.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Cəmiyyət 28.11.2018-ci il tarixdə təşkilati-hüquqi forması dəyişdirilərək Qapalı Səhmdar Cəmiyyətindən Açıq Səhmdar Cəmiyyətinə çevrilmişdir.

**13.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları** AZ1106, Bakı şəh., Nərimanov ray, Azadlıq pr, ev. Giri 211E, internet sehifesi mövcud deyil. **elektron poçt ünvanı:** rufat.manafov@bqmmc.az, **əlaqə telefonları**:+994553888686

**13.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiya həyata keçirilməmişdir.

**13.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Emitentin cari investisiyaları mövcud deyildir.

**13.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1078, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@bfb.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: +99412 498 98 20
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 14. Emitentin biznesinin icmalı

**14.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** BQ" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir. Təşkilat təminatlı kredit bazarında fəaliyyət göstərir. Bundan əlavə təşkilat Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə uyğun qaydada məşğul ola bilər.

**14.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Təqdim olunmuş yeni məhsullar mövcud deyildir.

**14.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Emitent əsasən lombard kreditləri üzrə fəaliyyət göstərir. Lombard fəaliyyəti çərçivəsində emitent, təminat müqabilində müştərilərə qısa müddətli kreditlər verir. Bu kreditlər əsasən daşınar əmlak olan qızıl, qızıl-zinət əşyaları əsasında verilir.

Emitentin rəqabət apardığı əsas bazarlar aşağıdakılardır:

**Əsas bazar:** Şəhər və regionlarda fərdi müştərilərə lombard kreditləri təqdim edən təşkilatlar:

➢ **Lombardlar** əsasən qısamüddətli, kiçik məbləğli kreditləri fiziki şəxslərə təqdim edir. Kreditlər adətən fiziki girov (qızıl, məişət texnikası, elektronika və s.) əsasında təmin olunur. Bu fəaliyyət növünün əsas üstünlükləri:

- Yüksək operativlik və çeviklik (banklarla müqayisədə daha az sənəd tələbi);
- Kredit tarixçəsinin önəmsizliyi (müştərinin kredit tarixçəsi yox, girov əsas götürülür);
- Qısa müddətli likvidlik imkanı təmin edən xidmət;

Bu üstünlüklər lombardları, xüsusilə bank xidmətlərinə çıxışı məhdud olan əhali qrupları üçün cəlbedici edir. Azərbaycanda lombard sektorunda rəqabət əsasən aşağıdakı oyunçular arasında formalaşır:

➢ **Klassik lombardlar** (fərdi sahibkarlar və MMC-lər formasında)
- Paytaxt və bölgələrdə geniş fəaliyyət göstərirlər.
- Rəsmi qeydiyyatda olan, lakin çox zaman şəffaflıq və audit hesabatı təqdim etməyən qurumlardır.
- Rəqabətdə əsas üstünlükləri – yüksək faiz, lakin çevik şərtlər və daha az formalizm.

➢ **Lisenziyalı qeyri-bank kredit təşkilatları (QBKT-lər)**

- Mərkəzi Bankdan lisenziya almış, nizamnamə kapitalı və audit tələblərinə cavab verən qurumlardır.
- Girovlu və girovsuz kreditlər təklif etsələr də, lombard seqmentində də iştirak edirlər.

"BQ" ASC bu qurumlarla rəqabət aparmaqla şəffaflıq və etibarlılıq baxımından üstünlük qazanmışdır.

**Rəqabətçilər:** Banklar, qeyri-bank kredit təşkilatları və digər lombard müəssisələri.

➢ **Banklar və mikro-maliyyə institutları**

- Qızıl və ya digər əşyalarla təmin edilmiş qısa müddətli istehlak kreditləri təqdim edən bəzi banklar rəqabət yarada bilər.

Lakin bu sektor müvafiq olaraq daha çox sənəd və vaxt tələb etdiyi üçün lombardlar üçün birbaşa təhlükə sayılmır.

**Bazarın Xüsusiyyətləri və Tendensiyalar:** Bu bazarda uğur təmin etmək üçün sürətli kredit qərarları, şəffaf qiymətləndirmə, müştəri xidməti və sərfəli şərtlərin təqdim olunması əsas amillərdir.

- **Yüksək likvidlik tələbi olan müştəri seqmenti** (işsizlər, əmək müqaviləsi olmayan şəxslər, təcili pul ehtiyacı olanlar) – əsas hədəf auditoriyadır.
- **Rəqəmsallaşma səviyyəsi aşağıdır**, lakin bu həm rəqabət, həm də fürsət yaradır (online qiymətləndirmə, rəqəmsal müştəri xidmətləri).
- **Tənzimləyici risklər artmaqdadır** – Mərkəzi Bankın sektora nəzarəti gücləndirməsi səbəbindən daha sərt şəffaflıq və kapital tələbləri tətbiq edilə bilər.
- **İqtisadi qeyri-sabitliklər** (inflyasiya, manatın dəyəri və s.) – girov qiymətləndirilməsinə və müştəri ödəmə qabiliyyətinə təsir göstərir.

**Emitentin Rəqabət Üstünlükləri və Riskləri**

**Üstünlüklər:**

- Audit olunmuş maliyyə hesabatları ilə şəffaflıq nümayiş etdirir.
- Kredit portfelinin davamlı artımı – bazar payını qoruduğunu göstərir.
- Yüksək çeviklik və operativ xidmət – fərdi müştərilər üçün cəlbedici seçim.

**Risklər:**

- Sürətlə artan qeyri-rəsmi lombard subyektləri ilə qiymət və faiz rəqabəti.
- Girov qiymətləndirilməsi və risklərin sığortalanmaması – aktivlərin dəyər itirmə riski.
- Borc əsasında böyümə – maliyyə dayanıqlığını zəiflədə bilər (xüsusilə faiz dərəcələri artdıqda).

Emitent bazarda öz mövqeyini gücləndirmək və rəqabət üstünlüyü əldə etmək məqsədilə müasir kredit texnologiyalarından istifadə edir və müştərilərə çevik, şəffaf və təhlükəsiz xidmət təqdim edir.

**14.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:**
Mövcud deyil.

## 15. Digər təşkilatlarda iştirak

**15.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsvir:** Mövcud deyil.

**15.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 16. Tendensiyalar barədə məlumat

**16.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**16.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitent cari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

**17. Gəlir proqnozu:** Mövcud deyil.

## 18. Emitentin idarəetmə və nəzarət orqanları

**18.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

| **Adı, soyadı, atasının adı** | **Fərman Quliyev Eldar oğlu (Nəzarət)** | **Rufat Manafov Sabiroviç (idarəetmə)** |
|---|---|---|
| **Vəzifəsi** | Səhmdar | Direktor |
| **Funksiyaları** | Cəmiyyətin fəaliyyəti ilə bağlı məlumat almaq və illik maliyyə hesabatları ilə tanış olmaq; Ümumi yığıncağın çağrılmasını və gündəliyində dəyişiklik edilməsini tələb etmək;<br>Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında iştirak etmək və protokolun surətini tələb etmək; Cəmiyyətin fəaliyyətinin auditor və ya təftiş komissiyası tərəfindən yoxlanılmasını tələb etmək; | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır, sərəncamlar verir; Təşkilatın fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |

**18.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Mövcud deyil.

## 19. İdarə heyətinin işgüzar praktikası

**19.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Mövcud deyil.

**19.2. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:** Emitentin idarəetmə forması Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmişdir. Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Hal-hazırda Cəmiyyətin yeganə səhmdarı Fərman Quliyev Eldar oğludur və müvafiq qərarlar onun tərəfindən qəbul edilir. Ümumi yığıncaq qərarları protokolla rəsmiləşdirilir və katib tərəfindən sənədləşdirilir.
Cəmiyyətin ayrıca idarə heyəti mövcud deyil;
Gündəlik fəaliyyətə icra orqanı – direktor rəhbərlik edir. Emitent öz fəaliyyətində korporativ idarəetmənin əsas prinsiplərinə – şəffaflıq, hesabatlılıq və maraqlı tərəflərin hüquqlarının qorunmasına riayət edir. Maliyyə hesabatları qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim olunur və müvafiq açıqlamalar verilir. Hazırda emitent ölkədə tətbiq olunan korporativ idarəetmə standartlarına böyük ölçüdə uyğun fəaliyyət göstərməkdədir. Gələcəkdə idarəetmə strukturunun təkmilləşdirilməsi, o cümlədən idarə heyətinin formalaşdırılması və xüsusi nəzarət komitələrinin yaradılması istiqamətində addımlar atılması planlaşdırılır.

## 20. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**20.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| № | Adı, soyadı | Vətəndaşlığı | Səhmlərin sayı | Emitentin nizamnamə kapitalında olan faiz nisbəti |
|---|---|---|---|---|
| 1 | Fərman Quliyev Eldar | Azərbaycan | 2 ədəd | 100% |

**20.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** "BQ" ASC-də mühüm iştirak payına malik olan yeganə səhmdar Fərman Quliyev Eldar oğludur. O, 100% paya malikdir və Cəmiyyətin ümumi yığıncağı vasitəsilə emitentin idarə olunmasında əsas qərarverici subyektdir. Səhmdarın idarəetmə fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və emitentin nizamnaməsinə uyğun şəkildə həyata keçirilir. Qərarların rəsmiləşdirilməsi protokollarla aparılır, şəffaflıq və hüquqi uyğunluq prinsiplərinə əməl olunur. Emitent tərəfindən aşağıdakı tədbirlər vasitəsilə səhmdar nəzarətinin şəffaf və ədalətli aparılması təmin edilir: Bütün qərarlar sənədləşdirilir və qanuni əsaslarla qəbul olunur;
Maliyyə hesabatları qanunvericiliklə müəyyən edilmiş qaydada təqdim olunur və maliyyə intizamına ciddi riayət edilir;
Qərarvermədə maraqların toqquşmasının qarşısının alınması üçün daxili nəzarət mexanizmləri tətbiq olunur;
Əgər gələcəkdə əlavə səhmdarlar cəlb olunarsa, onların hüquqlarının bərabər qorunması üçün hüquqi və təşkilati baza mövcuddur. Beləliklə, emitentə nəzarət edən səhmdarın fəaliyyəti şəffaf şəkildə həyata keçirilir və bu nəzarətin sui-istifadə hallarına yol verilməməsi üçün hüquqi və təşkilati tədbirlər mövcuddur.

**20.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən hal barədə məlumat yoxdur.

## 21. Emitentin maliyyə məlumatları

### 21.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

### 21.1.1. Maliyyə vəziyyəti haqqında hesabat;

**"BQ" ASC**
**31 DEKABR 2024-CÜ İL TARİXİNƏ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 267,331 | 117,585 |
| Müştərilərə verilmiş kreditlər | 7 | 4,506,294 | 4,105,330 |
| Digər aktivlər | 8 | 74,824 | 139,937 |
| Vəsaitin istifadə hüququ | 9 | 125,991 | 115,831 |
| Təxirə salınmış vergi aktivi | 17 | 51,578 | 38,757 |
| **Cəmi aktivlər** | | **5,026,018** | **4,517,440** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 10 | 2,484,232 | 2,510,085 |
| Buraxılmış istiqrazlar | 12 | 1,985,334 | 1,873,634 |
| Mənfəət vergisi öhdəliyi | | 118,416 | - |
| İcarə öhdəlikləri | 9 | 135,775 | 125,236 |
| Digər öhdəliklər | 11 | 140,137 | 126,688 |
| **Cəmi öhdəliklər** | | **4,863,894** | **4,635,643** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 13 | 4,010 | 4,010 |
| Bölüşdürülməmiş mənfəət | | 158,114 | (122,213) |
| **Cəmi kapital** | | **162,124** | **(118,203)** |
| **Cəmi öhdəliklər və kapital** | | **5,026,018** | **4,517,440** |

## 21.1.2. Mənfəət və zərər haqqında hesabat;

**"BQ" ASC**

**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 14 | 2,105,109 | 1,911,082 |
| Faiz xərcləri | 14 | (726,871) | (691,140) |
| **Xalis faiz gəlirləri** | | **1,378,238** | **1,219,942** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | | (25,729) | (11,249) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **1,352,509** | **1,208,693** |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər | | (4) | (3) |
| Haqq və komissiya gəlirləri | 15 | 107,206 | 96,460 |
| Haqq və komissiya xərcləri | 16 | (9,855) | (22,490) |
| Digər gəlirlər | | - | - |
| İnzibati və digər əməliyyat xərcləri | 17 | (997,262) | (1,198,945) |
| **Vergidən əvvəlki (zərər)/mənfəət** | | **452,594** | **83,715** |
| Mənfəət vergisi xərci | 18 | (109,267) | (20,117) |
| **İl üzrə (zərər)/mənfəət** | | **343,327** | **63,598** |
| **İl üzrə sair məcmu gəlirlər** | | - | - |
| **İl üzrə cəmi (zərər)/mənfəət və sair məcmu gəlirlər** | | **343,327** | **63,598** |

## 21.1.3. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

**"BQ" ASC**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul :** | | |
| Əldə edilmiş faizlər | 2,044,120 | 1,900,059 |
| Ödənilmiş faizlər | (727,230) | 683,768 |
| Əldə edilmiş haqq və komissiyalar | 107,206 | 96,460 |
| Ödənilmiş haqq və komissiyalar | (9,855) | (22,490) |
| Ödənilmiş işçi xərcləri | (807,105) | (974,986) |
| Ödənilmiş icarə xərcləri | (59,079) | (145,189) |
| Əldə edilmiş digər əməliyyat gəlirləri | - | - |
| Ödənilmiş mənfəət vergisi xərci | (3,672) | 19,977 |
| Ödənilmiş inzibatı və digər əməliyyat xərcləri | (185,083) | (296,923) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **359,302** | **1,260,676** |
| Müştərilərə verilmiş kreditlər | (1,130,384) | (4,284,290) |
| Digər aktivlər | 65,113 | (97,913) |
| Digər öhdəliklər | (57,281) | 150,836 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(763,250)** | **(2,970,691)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Cəlb edilmiş müddətli borc öhdəlikləri | 750,000 | 1,100,000 |
| Ödənilmiş müddətli borc öhdəlikləri | 58,000 | 1,271,864 |
| Ödənilmiş dividendlər | (63,000) | - |
| Buraxılmış istiqrazlar | 168,000 | 650,000 |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **913,000** | **3,021,864** |
| *Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri azalma* | (4) | (3) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **149,746** | **51,170** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **117,585** | **66,415** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **267,331** | **117,585** |

## 21.1.4. Kapitalda dəyişikliklər haqqında hesabat;

"BQ" ASC
31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə Kapitalı | (Yığılmış defisit)/Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **4,010** | **(185,811)** | **(181,801)** |
| İl üzrə (zərər)/mənfəət və sair məcmu gəlirlər | - | 63,598 | **63,598** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **4,010** | **(122,213)** | **(118,203)** |
| İl üzrə (zərər)/mənfəət və sair məcmu gəlirlər | - | 343,327 | **343,327** |
| Ödənilmiş dividendlər | - | (63,000) | **(63,000)** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **4,010** | **158,114** | **162,124** |

**21.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 1 ildən artıq müddətə fəaliyyət göstərir.

**21.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır və emissiya prospektinin 21-ci maddəsinə əlavə edilmişdir.

**21.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin törmə müəssisələri olmadığı üçün konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyil.

**21.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitentin son audit edilmiş maliyyə hesabatları tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları audit olunmamışdır və dərc edilməmişdir.

**21.6. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir** Aralıq maliyyə hesabatları audit edilməmişdir və Baza Emissiya prospektinə əlavə edilir.

## 21.6.1. Maliyyə vəziyyəti haqqında hesabat;

**"BQ" ASC**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | 31 dekabr 2025-ci il (audit edilməmiş) | 31 dekabr 2024-ci il (audit edilmiş) |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 325 986 | 267 331 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 0 | 0 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 6 223 329 | 4 506 294 |
| Əmlak və avadanlıqlar | 0 | 0 |
| Qeyri-maddi aktivlər | 0 | 0 |
| Mənfəət vergisi aktivi | 246 247 | 0 |
| Digər aktivlər | 8 860 | 74 824 |
| Vəsaitin istifadə hüququ | 0 | 125 991 |
| Təxirə salınmış vergi aktivi | 0 | 51 578 |
| **Cəmi aktivlər** | **6 804 422** | **5 026 018** |
| **ÖHDƏLİKLƏR** | | |
| Müddətli borc öhdəlikləri | 3 481 620 | 2 484 232 |
| Buraxılmış qiymətli kağızlar | 2 006 986 | 1 985 334 |
| Mənfəət vergisi öhdəliyi | 174 000 | 118 416 |
| İcarə öhdəlikləri | 0 | 135 775 |
| Digər öhdəliklər | 61 834 | 140 137 |
| **Cəmi öhdəliklər** | **5 724 440** | **4 863 894** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 4 010 | 4 010 |
| Bölüşdürülməmiş mənfəət | 1 075 973 | 158 114 |
| **Cəmi kapital** | **1 079 983** | **162 124** |
| **Cəmi kapital və öhdəliklər** | **6 804 422** | **5 026 018** |

## 21.6.2. Mənfəət və zərər haqqında hesabat;

**"BQ" ASC**

**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | **İlin əvvəlindən 31 Dekabr 2025-ci il tarixinə olan dövr (audit edilməmiş)** | **İlin əvvəlindən 31 Dekabr 2024-cü il tarixinə olan dövr(audit edilmiş)** |
|---|---|---|
| Faiz gəlirləri | 2 553 372 | 2 105 109 |
| Faiz xərcləri | (724 500) | (726 871) |
| **Xalis faiz gəlirləri** | **1 828 872** | **1 378 238** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | (24 920) | (25 729) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | **1 803 953** | **1 352 509** |
| Haqq və komissiya gəlirləri | 500 147 | 107 206 |
| Haqq və komissiya xərcləri | (21 145) | (9 855) |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər | (4) | (4) |
| Digər gəlirlər | - | - |
| İnzibati və digər əməliyyat xərcləri | (1 200 210) | (997 262) |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | **1 082 741** | **452 594** |
| Mənfəət vergisi xərci | (164 883) | (109 267) |
| **İl üzrə cəmi mənfəət(zərər) və sair məcmu gəlirlər** | **917 859** | **343 7** |

## 21.6.3. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat:

**"BQ" ASC**

**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | 31 Dekabr 2025-ci il tarixində bitən il (audit edilməmiş) | 31 Dekabr 2024-cü il tarixində bitən il (audit edilmiş) |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul:** | | |
| Əldə edilmiş faizlər | 2 256 584 | 2 044 120 |
| Ödənilmiş faizlər | (639 246) | (727 230) |
| Əldə edilmiş haqq və komissiyalar | 500 147 | 107 206 |
| Ödənilmiş haqq və komissiyalar | (21 145) | (9 855) |
| Ödənilmiş işçi xərcləri | (965 432) | (807 105) |
| Ödənilmiş icarə xərcləri | (139 564) | (59 079) |
| Ödənilmiş mənfəət vergisi xərci | (292 000) | (3 672) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | (95 213) | (185 083) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **604 131** | **359 302** |
| Müştərilərə verilmiş kreditlər | (1 482 965) | (1 130 384) |
| Digər aktivlər | 111 717 | 65 113 |
| Digər öhdəliklər | (108 010) | (57 281) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(875 127)** | **(763 250)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Əsas vəsaitlərin alışı | - | - |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **-** | **-** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Cəlb edilmiş müddətli borc öhdəlikləri | 1 600 000 | 750 000 |
| Ödənilmiş müddətli borc öhdəlikləri | (680 214) | 58 000 |
| Buraxılmış istiqrazlar | 14 000 | 168 000 |
| Ödənilmiş dividendlər | - | (63 000) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **933 786** | **913 000** |
| ***Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri*** | (4) | (4) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **58 655** | **149 746** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **267 331** | **117 585** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **325 986** | **267 331** |

### 21.6.4. Kapitalda dəyişikliklər haqqında hesabat;

"BQ" ASC
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi capital |
|---|---|---|---|
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **4 010** | **158 114** | **162 124** |
| İl üzrə mənfəət /(zərər) və sair məcmu gəlir | - | 917 859 | **917 859** |
| Ödənilmiş dividendlər | - | - | - |
| **31 ekabr 2025-ci il tarixinə qalıq** | **4010** | **1075 973** | **1079 983** |

**21.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bu növ hüquqi proseslər olmamışdır.

**21.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Sonuncu audit edilmiş malliyyə hesabatlarının dərc edilməsindən sonra təşkilatın kapitalında əhəmiyyətli artım olmuşdur. Cari 2025 ci ilin mənfəəti kapitalın artmasına şərait yaratmışdır, təsisçi tərəfindən divident götürülməmişdir və yaxın zamanda təşkilatın nizamnamə kapitalının artırılması planlaşdırılır.

## 22. Emitent haqqında əlavə məlumatlar

**22.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

| **Adı, soyadı, ata adı** | **Nizamnamə kapitalının miqdarı** | **Nominal dəyəri** | **Səhmlərin sayı** | **Faiz nisbəti** | **Vətəndaşlıq** |
|---|---|---|---|---|---|
| Fərman Quliyev Eldar oğlu | 4,010 AZN | 2,005 AZN | 2 ədəd | 100% | Azərbaycan |

Emitentin nizamnamə kapitalı 4010 (dörd min on) manatdır və bu kapital 2 (iki) ədəd, hər biri 2,005 (iki min beş) manat nominal dəyərində adi, sənədsiz, adlı səhmdən ibarətdir. Dövlət qeydiyyat nömrəsi – AZ1002020936 Emitentin səhmdarları yeni səhmlərin buraxılması zamanı üstünlük hüququna malikdirlər. Eyni növdə olan səhmlər üzrə verilən hüquqlar bərabərdir. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, səhmdarlar aşağıdakı hüquqlara malikdirlər:

Cəmiyyətin fəaliyyəti ilə bağlı məlumat almaq və illik maliyyə hesabatları ilə tanış olmaq;
Ümumi yığıncağın çağrılmasını və gündəliyində dəyişiklik edilməsini tələb etmək;
Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında iştirak etmək və protokolun surətini tələb etmək;
Cəmiyyətin fəaliyyətinin auditor və ya təftiş komissiyası tərəfindən yoxlanılmasını tələb etmək;
Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
Səhmlərin satışı prosesində iştirak etmək və kütləvi səhmlərə münasibətdə üstünlük hüququna malik olmaq;
Cəmiyyətin ləğvi zamanı yerdə qalan əmlakın müəyyən hissəsini almaq;
Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**22.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**Fəaliyyət və məqsədlərin təsviri:** "BQ" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir. Səhmdarların Ümumi Yığıncağı Emitentin ali idarəetmə orqanıdır. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanını təyin etmək və onların səlahiyyətlərinə vaxtındanəlavə xitam vermək;
- Cəmiyyətin idarə edilməsində iştirak etmək,onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək, bu orqanların üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
- Xüsusi əhəmiyyətli əqdin bağlanması barədə qərar qəbul etmək.

**22.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.